## *Rasim* Nəbioğlu - 70

# ƏDƏBİYYAT İNSTİTUTUNDA "DƏYİRMİ MASA"

**Filologiya üzrə fəlsəfə doktoru, dosent, fəxri professor, aparıcı elmi işçi Rasim Nəbioğlunun anadan olmasının 70 illiyi münasibətilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun uyğun şöbələri onun yaradıcılığı ilə əlaqədar "Dəyirmi masa" keçiriblər.**

"Dəyirmi masa"nı filologiya elmləri doktoru, prof., Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri Rəhim Əliyev açaraq giriş sözü söylədi. Ədəbiyyat Nəzəriyyəsi şöbəsinin əməkdaşı Rasim Nəbioğlunun həyat və yaradıcılığı barədə qısaca məlumat verdi, elmi redaktor kimi onun "Mədəniyyət. İncəsənət. Ədəbiyyat" II kitabına yazdığı ön sözdən bəhs etdi, yubilyarı mütəfəkkir-ədəbiyyatçı və filosof kimi dəyərləndirdi. Sonra f.e.d., prof., Ortaq başlanğıc və İntibah dövrü Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri İmamverdi Həmidov; f.e.d., prof., Ədəbi tənqid şöbəsinin müdiri Vaqif Yusifli; f.e.d., prof., Mətbuat tarixi və publisistika şöbəsinin müdiri Vüqar Əhməd; Türk xalqları ədəbiyyatı şöbəsindən f.e.d., prof. Nizami Tağısoy; f.e.d., Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin baş elmi işçisi Esmira Fuad; filologiya üzrə fəlsəfə doktoru, dos., Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı şöbəsinin aparıcı elmi işçisi Qurban Bayramov; habelə Ədəbiyyat İnstitutunun əməkdaşları - fil.f.d., dos., aparıcı elmi işçi Mahmizər Mehdibəyova; fil.f.d., dos., aparıcı elmi işçi Pərvanə Məmmədli; fil.f.d., böyük elmi işçi Fikrət Süleymanoğlu; böyük elmi işçi Lətifə Mirzəyeva; böyük elmi işçi Elmira Bağırova; böyük elmi işçi Kifayət Məmmədova; elmi işçi Zəminə Zeynalova Rasim Nəbioğlunun çoxcəhətli yaradıcılığına yüksək qiymət verdilər, onun müəllim və mühazirəçi-pedaqoq, tənqidçi-ədəbiyyatşünas, estetik, mədəniyyətşünas, sənətşünas, jurnalist-publisist, tərcüməçi-tərcüməşünas kimi fəaliyyətindən bəhs etdilər, nəşr olunmuş kitabları ilə bağlı fikir, mülahizə və təəssüratlarını bölüşdülər.

Rasim Nəbi oğlu Qurbanov 10 mart 1953-cü ildə Xaçmaz şəhərində anadan olmuşdur. 1969-cu ildə Siyəzən şəhərində orta məktəbi bitirmiş, sonra Xarici Dillər İnstitutunun - indiki ADU-nun İngilis-Azərbaycan dilləri fakültəsində təhsil almışdır. Onun "Mahiyyət, təzahür" adlı ilk məqaləsi də 1972-ci ildə ADU-nun çoxtirajlı "Bilik" qəzetində çap edilmişdir. Burada R.Nəbioğlu şair, dosent A.Tağızadə və mütərcim-filoloq Z.Ağayevin rəhbərlik etdiyi "Cığır" ədəbi birliyində, həmçinin Lenin və Sabir adına kitabxanalarındakı dərnəklərdə qabiliyyətcə daha da inkişaf etmiş və yetişmişdir. BDU-dakı filosof-tənqidçi A.Əfəndiyevin "Etik və estetik tərbiyə klubu"nda iki dəfə məruzə ilə çıxış etmişdir. 1977-ci ildə institutu bitirəndən sonra R.Nəbioğlu Dəvəçi rayonunda və Siyəzən şəhərində pedaqoji fəaliyyətə başlayaraq müəllim, pioner və məktəblilər evində dərnək rəhbəri və direktor vəzifəsində işləmiş, rayonun "Qurucu" qəzetində ştatdankənar müxbir kimi fəaliyyət göstərmişdir. 1978-ci ildə Azərbaycan Yazıçılar İttifaqının nəzdində yaradılmış "Gənc tənqidçilər studiyası"na müsabiqə yolu ilə qəbul edilmişdir. 1981-ci ildən respublika mətbuatında ədəbi-tənqidi, elmi, publisistik məqalə, tərcümə, esse, hekayə və s. janrlarda qələmə aldığı yazılarla çıxış edir. 1982-ci ildə Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına (qiyabi) daxil olmuşdur. İkiillik rejissorluq kursunu bitirmişdir (1988-1990). Mədəniyyət sarayında və məktəblərdə dram, bədii özfəaliyyət, qiraət, "Gənc qələmlər" dərnəklərinə və "Xəzər" ədəbi birliyinə rəhbərlik etmişdir. "Hüseyn Cavidin estetik idealı" mövzusunda (Elmi rəhbəri akademik M.C.Cəfərov) dissertasiya müdafiə etmişdir (1991). S.Vurğun adına Rus Dövlət Dram Teatrında işləmişdir (1992). 1994-1997-ci illərdə doktoranturaya çıxmışdır. Bir müddət Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Quba filialında direktor müavini vəzifəsini daşımışdır (1995). Bəzi mətbuat orqanlarında və nəşriyyatlarda korrektor, müxbir, şöbə müdiri, elmi redaktor və baş redaktor olmuşdur ("Şəhriyar", "Millət", "Versiya", "Vətəndaş həmrəyliyi", "525-ci qəzet", "Gənc mütəxəssislər", "Azərbaycan fermeri" qəzetləri, "Folklor və etnoqrafiya", "Müasir mədəniyyətşünaslıq" jurnalları). Eyni zamanda, Cənubi Rusiya-Humanitar Universitetinin (Rostov-Don şəhəri) Bakı filialında Dillər və ədəbiyyat kafedrasının müdiri və dekanı vəzifəsində işləmişdir (1999-2006). Həmin universitetin fəxri professorudur. Avrasiya İnzibati Elmlər Akademiyasının (Moskva şəhəri) müxbir üzvüdür. Vaxtilə Azərbaycan Yazıçılar İttifaqı üzvlüyünə qəbul edilməsi üçün yazıçı Ə.Hacızadə, tənqidçi N.Cabbarov və tənqidçi-yazıçı R.Əliyev ona zəmanət vermişlər. O, həm də Azərbaycan Jurnalistlər və Aşıqlar Birliyinin üzvüdür. "Qızıl qələm", "Həsən bəy Zərdabi" və s. media mükafatlarına layiq görülmüşdür. R.Nəbioğlu Ədəbiyyat İnstitutunda işləməklə bərabər, müxtəlif universitetlərdə (Xəzər Universiteti, Qərb Universiteti, Dövlət Pedaqoji Universiteti, Lənkəran Dövlət Universiteti, Azərbaycan Tibb Universiteti, Fövqəladə Hallar Akademiyası, Milli Konservatoriya) pedaqoji-metodiki və filoloji-linqvistik fənlərdən, həmçinin etika, estetika, fəlsəfə, kulturologiya, sosiologiya və s. predmetlərdən dərs demiş və mühazirə oxumuşdur. 2007-2015-ci illərdə həm də Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzində (indiki Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi) elmi katib, şöbə müdiri, habelə kulturologiya və sənətşünaslıq indeksləri Respublika Prezidentinin yanında Ali Attestasiya Komissiyasının siyahısındakı "Müasir Mədəniyyətşünaslıq" elmi, metodiki, publisistik jurnalının elmi redaktoru kimi çalışmışdır.



R.Nəbioğlu folklor, klassik ədəbiyyat, o cümlədən dünya ədəbiyyatı, estetika, nəzəriyyə, bədii yaradıcılıq, gözəllik fəlsəfəsi və mədəniyyətşünaslıq problemlərindən, ayrı-ayrı sənətkarların həyat və yaradıcılığından, teatr tamaşalarından, kino filmlərdən, xalq musiqisindən, təsviri və dekorativ incəsənətdən, həmçinin ictimai həyat, zaman, din, insan və cəmiyyət qayğılarından da yazır: "Milli folklorumuzun epik janrında psixologizm", "Klassika və müasirliyin qovşağında" (akad. M.A.Dadaşzadə), "N.Gəncəvinin "Məxzənül-əsrar" əsərində Səlcuq hökmdarı", "Füzuli lirikasında kamillik idealı", "H.Cavid yaradıcılığında psixologizm", "Özünüdərkin yeni pilləsi" ("Şeyx Sənan" faciəsi), "Düşünən və düşündürən Hamlet", "M.A.Ersoy və H.Cavid sənəti", "Mütəfəkkir tənqidçi N.A.Dobrolyubov", M.Qorkinin "Çelkaş" hekayəsi, "Borçalı aşıq mühiti", "Epos və estetik ideal" (İngilis dastanı "Beovulf" ilə "Kitabi-Dədəm Qorqud"un müqayisəli təhlili), "Azərbaycan ədəbiyyatında estetik ideal", "Şəhriyarın estetik idealı", "Mədəniyyət və incəsənət: fəlsəfi-kulturoloji təhlil", "Ədəbiyyət ömrülü qəhrəmanlar" (İ.Əfəndiyevin "Valehlə Sarıköynəyin nağılı" romanı), "Orta əsrlərdə mədəniyyət fəlsəfəsi", "Ü.Hacıbəyovun "Leyli və Məcnun" operası", "Xalqın oğlu" (Xalq yazıçısı və rejissor Anarın "Uzun ömrün akkordları" filmi), "R.Azadə xanımın tədqiqatlarında fəlsəfi-dini və psixoloji təhlil", "Xalq şairi C.Novruzun yaradıcılığı", "H.Cavidin "Topal Teymur" dramı", "C.Cabbarlının estetikası", "C.Cabbarlının yaradıcılıq və həyat salnaməsi", "Müşfiq dünyası", "Nakamlıq" (M.Müşfiq haqqında), "M.Müşfiq: kainat durduqca", "Demə Səməd Vurğun gəldi gedərdi...", "S.Vurğun: bizdə şeir də var, sənət də vardır...", "Sənətkarın amalı", "2018-ci ilin ədəbi yekunu - nəzəriyyə", "Zamanla üz-üzə", "Ədəbiyyatda gözəllik aləmi", "Akademik M.C.Cəfərov bir filosof və estetik kimi", İ.Əfəndiyevin əsəri əsasında çəkilmiş "Təkcə sən" bədii televiziya filmi haqqında, "Əmanətdar şəxsiyyət, söz-qələm sahibi (Ə.R.Xələfli-65)", "Görkəmli alim, aşıqşünas və xəlqi şair - professor M.Qasımlı", "Xalq şairinin qələmli oğlu - M.Cabiroğlu", "Aşıq Əli", sosioloji oçerklər silsiləsindən "Biz və gerçəklik", "Ailə və cəmiyyət", "Biz kimik, biz niyə beləyik?" və s. məqalələri bu qəbildəndir. Onun tanınmış alimlər barədə - professorlardan N.Z.Hatəmi xanım, M.Əliyev, S.Əlizadə, A.Şükürov, S.Hüseynov, S.Əliyev, R.Əliyev, İ.Ağayev, L.Səmədova, İ.Məmmədli, T.Ağayev, T.Əfəndiyev, F.Yadigar, T.Bağırov, M.Mustafayev, K.Abdulla, V.Əhməd, Ə.Salamzadə, İ.Qəribli, eləcə də sənət xadimləri, yazıçı və şairlərdən T.Bakıxanov, S.Mirzəyev, H.Əbluc, Ə.Qədirov, Y.Hacıyev, həmçinin İ.Şıxlı, B.Vahabzadə, H.Abbaszadə, Q.Qasımzadə, M.Yaqub, M.Araz, V.Əziz, Ə.Əylisli, S.Səxavət, N.Abdullayev, A.Qədimoğlu, S.Süleymanov, S.Rüstəmxanlı, A.Qəhrəmanov, R.Zəbioğlu, F.Sadıq, Ə.Salahzadə, A.Abdullazadə, M.Ələkbərli, G.Göyyurd, T.Hüseynov, V.Nəsib, D.Nəsib, İ.Xətai, İ.Sadıq, S.Əhmədli, Ə.Hacızadə, T.Nurəli, V.Bəhmənli, habelə 70-90-cı illər ədəbi nəslinin yaradıcılığına həsr edilmiş "Yaşıllanan, yarpaqlanan budaqlar", "Afrodita, Eros və... Apatiya" və s. analitik məqalələrinə rast gəlirik.

Ədəbi-elmi mühit R.Nəbioğlunun maraqlı elmi təfəkkürə malik olduğunu onun monoqrafiyalarında və ədəbi-tənqidi, elmi-psixoloji məqalələrində görmüşdü. R.Nəbioğlunun "Dərəzarat" kitabındakı şeir, poema, hekayə, etüd və esseləri, habelə tərcümələri isə sübut etdi ki, R.Nəbioğlu həm də incə, zərif, düşündürücü bədii təfəkkürə malik qələm sahibidir. Ümumiyyətlə götürəndə, onun yaradıcılığında, istedadında bir çoxşaxəlilik, polifonizm, universallıq özünü bariz şəkildə göstərir. R.Nəbioğlu ingilis dilindən dünya ədəbiyyatı nümunələrini, habelə iqtisadi nəzəriyyə və musiqişünaslıq sahəsinə aid monoqrafiyaları ana dilimizə, həmçinin tanınmış yazıçılarımız Anar və Y.Səmədoğlunun hekayələrini, Ə.Pəhləvan və A.Rəhimovun romanlarını ingilis dilinə çevirmişdir. Dörd yüzdən artıq məqalə, oçerk, esse, mənsur şeir, etüd və hekayələri maraqla qarşılanmışdır. Elmi əsərləri və tərcümələri ölkəmizin hüdudlarından kənarda, o cümlədən Almaniya, ABŞ, İran, Rusiya və Türkiyədə nəşr olunmuşdur. Onun "İngilis dilindən vəsait", "İngilis dili - testlər", "Aforizmlər və hikmətli sözlər", "Hüseyn Cavidin estetik idealı", "İngiliscə-rusca-azərbaycanca danışıq kitabçası", "Dərəzarat" (nəzm, nəsr, tərcümə), "Vüqar Əhmədin yaradıcılıq yolu" (M.Cabiroğlu ilə birlikdə), "Mədəniyyət. İncəsənət. Ədəbiyyat" (I kitab), "Mədəniyyət. İncəsənət. Ədəbiyyat" (II kitab) və s. kitabları işıq üzü görmüşdür. Ümumiyyətlə, R.Nəbioğlu 19 orijinal, tərcümə və tərtib kitabının, həmçinin bir neçə tədris proqramının müəllifidir.

Prof. R.Əliyev məhsuldar keçən "Dəyirmi masa"ya yekun vuraraq, iştirakçılar adından R.Nəbioğlunu anadan olmasının 70 illiyi münasibətilə bir daha təbrik etdi, ona yeni-yeni uğurlar arzuladı.

Son olaraq Rasim Nəbioğlu hamıya minnətdarlığını bildirdi, onların hər birinə təşəkkür etdi.

***Afaq* Mehdibəyova**
***Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı***